*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 476-481*

https://doi.org/10.62837/2025.10.476
**QASIMOV MAHMUDAĞA SARIBALA OĞLU**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının baş müəllimi*
*E-mail:mahmudağa. @mail. ru*

# MƏHƏMMƏD FÜZULİNİN ƏSƏRLƏRİNİN 6 CİLDLİYİ HAQQINDA …

**Açar sözlər :** Azərbaycan ədəbiyyatı, Məhəmməd Füzuli, poema, lirika, qəzəl, divan, qəsidə, janr

**Ключевые слова :** Азербайджанская литература, Мухаммед Физули, поэма, лирический, газель, диван, ода, жанр

**Keywords :** Azerbaijan literature, Muhammed Fuzuli, poem, lyrics, ghazal, divan, ode, genre

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatının söz mülkünün tacidarı, günəş kimi işıq saçan qüdrətli sənətkarlarından biri, türk dünyasının könülləri fəth edən əbədiyaşar sənətkarıdır. Onun yazdığı sənət əsərləri görkəmli ədəbiyyatşünas alimlər tərəfindən toplanmış və respublikamızda VI cilddə nəşr olunmuşdur. Bu əsərləri oxuyub araşdırdıqca şairin böyüklüyü, mükəmməl söz xiridarı olması insanı özünə məftun edir. Çünki Füzuli hər bir əsərində sözün və fkirin mahiyyətini məharətlə açaraq oxucusunu bu barədə düşünməyə, həyati reallıqları duymağa yönəldir. Bu mənada Füzuli təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Şərq ədəbiyyatında əsərləri dönə-dönə köçürülən, yaxud nəşr olunan, çox sevilən və çox oxunan ən tanınmış sənətkarlardandır. ( I cild, səh. 11)

Onun əsərlərinin I cildi Azərbaycan dilində olan lirik irsini, poetik düşüncəsinin əbədiyaşar qiymətli söz incilərini əhatə edir. Bu mənada şairin şeirləri, xüsusən qəzəlləri öz təbii lirizmi və bədii mahiyyəti etibarı ilə çox sevilir.

Şairin ana dilində yaratdığı **"Divan"** türk xalqlarının ədəbiyyatına güclü təsir göstərməklə oxucunun rəğbətini qazanmışdır. Onun qəzəlləri oxucunu bədii sözün qüdrəti ilə sehrlənib düşünməyə, həyat gözəllərini real şəkildə vəsf edib dərk etməyə səsləyir. Füzuli qəzəlləri fəlsəfi mahiyyət daşıyır. O, insana ilahi varlığı, səmimi gözəlliyi duymağı, kainatı dərk etməyi öyrədir. İnsanda səmimi hisslər yaradır. Saflıq, xeyirxahlıq, həyata məhəbbət, insana, onun mənəvi gözəlliyinə dərin hörmət yaradır. Füzulinin bir çox beytlərində Quranın ayələri, peyğəmbərin hədisləri və klassiklərin şeirdə **geniş yayılmış sufilik oyanışları** duyulur. Füzuli yaradıcılığı rəngarəng bədii təsvir və ifadə vasitələri ilə zəngindir. Onun əsərlərində vəsf edilən qiymətli sözlər, yüksək hikmət daşıyan xalq ifadələri əvəzsiz emosionallıq və obrazlılıq mənbəyidir. Şair belə ifadələrin məğzində xalqın həssas istək və arzularını, həyata real baxışlarını, sevib-sevilmək səmimiyyətini və davranışını görür. Bu

cəhətinə görə Füzuli dünya ədəbiyyatının nadir şəxsiyyətlərindən biri hesab edilir. O, paklıq mücəssəməsi olmaqla hər zaman öz bədii sözü ilə ürəklərə yol tapan, qəlblərdə özünə məhəbbət və xeyirxahlıq körpüsü salan nur, müqəddəs duyğuların hərarəti ilə şölə saçan sönməz günəşdir. Bu günəş nəinki Azərbaycan ədəbiyyatına, həmçinin dünya ədəbiyyatına daim işıq saçacaq. Odur ki, xalqımızın əzəmətli şairi Məmməd Füzuli yazmış olduğu əsərlərdə özünü qüdrətli söz ustadı, filosof alim, təbib, hüquq müdafiəçisi kimi göstərməklə dünya ədəbiyyatı və mədəniyyətinə böyük töhfələr vermiş, dövlətçilik tariximizdə özünə layiqli yer tutmuşdur. O, üç dildə: Azərbaycan, ərəb və fars dilində yazmış və bu dillərin hər birində mükəmməl divan yaratmışdır. Şair yaradıcılığında nəzm və nəsrdən istifadə etmiş, qələminin qüdrəti ilə ədəbiyyatımıza gözəl əsərlər bəxş etmişdir. Onu lirik şair kimi tanıdan qəzəlləri, qəsidələri, mürəbbe, müxəmməs, qitə, rübai və s. janrlarda yazdığı şeirləri klassik ədəbiyyatımızın gözəl inciləri, qüdrətli kəlamları hesab edilir. Buna görə də Füzuli və onun lirik şeirləri sevilir, yüksək bədii dəyərinə görə qiymətləndirilir. Hətta o, söz xiridarları və xalq tərəfindən "qəlb şairi" adlandırılır.

Füzulinin I və II cildləri qəsidələrindən və **"Hədiqətüs-süəda"**dan başqa ana dilindəki bütün əsərlərini əhatə edir. Bunların içərisində **"Leyli və Məcnun"** Füzuli yaradıcılığının ən yüksək zirvəsi hesab edilir. Saf, təmiz eşqin mənəvi qələbəsini təsdiq edən bu əsərində şair bir sıra ictimai məsələlərə də toxunmuş, sevgi azadlığı, məhəbbət aləmində bərabərlik, insan şəxsiyyətinə hörmət, vəfa, sədaqət, fədakarlıq, dəyanət kimi gözəl sifətlərdən bəhs etmişdir. (II cild, səh. 4)

Şair əsərdə orta əsr qadınlarının hüquqsuzluğuna, kölə vəziyyətində yaşamasına etirazını üsyankarcasına Leylinin dili ilə belə ifadə edir:

Mən gövhərəm, özgələr xiridar,
Məndə deyil ixtiyari-bazar.
Dövran ki, məni məzada saldı,
Bilmən kim idi satan, kim aldı?
Olsaydı mənim bir ixtiyarım,
Olmaz idi səndən özgə yarım! (II cild, səh. 150)

Şair poemanın digər parçalarında Leylinin şama, pərvanəyə, aya, səbaya, buluda müraciətlərini ürəkağrısı ilə vermiş, qadının mənəvi azadlıq istəyini real şəkildə əks etdirməklə dövrün, zamanın haqsızlıqlarına qarşı öz etirazını bildirmişdir. Bədii sözə zərgər dəqiqliyi ilə yanaşan sənətkar doğma dilin zəngin ifadələri ilə əsəri, oradakı obrazların dilini daha canlı və real şəkildə əks etdirmişdir.

Şair alleqorik tərzdə yazdığı **"Bəngü Badə"** əsərində zəmanəsinin ictimai dərdlərinə toxunmuş, mülk-torpaq üstündə gedən qanlı çəkişmələrə qarşı çıxır. Ad-san, şöhrət hərisi, mənəmlik iddasında olan şəxslərin bir-birinə meydan oxumasını ürəkağrısı ilə açıb göstərir. **"Söhbət-ül əsmar"** əsərində ictimai bəlalara, yersiz çəkişmələrə münasibət bildirərək mənasız yerə öyünüb özünü tərifləyən şəxslərin iç üzünü meyvələrin mübahisəsində real şəkildə vermiş, bir təbib kimi onların

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 476-481*

xassələrini, insan orqanizminə təsirini məharətlə açmışdır. **Sultan Süleymana yazdığı** bədii nəsrin ilk nümunəsi olan **"Şikayətnamə"** əsərində zəmanəsinin vəqf idarələrindəki məmurların rüşvətxorluğu, süründürməçiliyi, özbaşınalığı, qanunsuz əməlləri cəsarətlə ifşa olunur. İstedadlı, bacarıqlı elm adamlarının qiymətləndirilməməsinə ciddi etiraz edir. Bu ifadəni şairin aşağıdakı kəlamları təsdiq edir:

Salam verdim-rüşvət deyildir deyü almadılar.
Hökm göstərdim-faidəsizdir deyü mültəfit olmadılar. (II cild, səh. 298)

Azərbaycan şeirinin ölməz incilərini yaradan Məhəmməd Füzuli ana dilində yazıb, tərtib etdiyi **"Divan"** dakı lirik şeirlərində oxucusunu bədii sözün qüdrətilə daim düşündürür, real həyat gözəlliklərini dərk etməyə sövq edir:

Eşqin dərdinə düşdüm, ölməyim labüd, fəqət,
Qəm deyil, mən xəstəni, bil şövqi-qəmxar öldürər. (III cild, səh. 296)

Şairin bu könül nəğmələri ürəklərdə pak saflıq, xeyirxahlıq, həyata yüksək inam və məhəbbət yaradır, onları oxuduqca bu müdrik kəlamlardan bədii və mənəvi zövq alır. Bu mənada dövrün mütəfəkkiri, qüdrətli söz ustadı sayılan Füzulinin hikmət xəzinəsi, könül nəğmələri oxucusuna daim mənəvi qida verir, onun estetik zövqünü zənginləşdirir. Bu cəhətlərinə görə, sözün əsl mənasında desək, Füzuli eşq təliminin banisi-filosofu sayılır. Sözə verdiyi qiyməti belə izah edir:

Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə,
Onda bir zövq artıran hər dürlü nemət düzmüşəm. (III cild, səh. 425)

Bu mənada Füzulinin ana dilində yazdığı qəzəlləri və **"Leyli və Məcnun" poeması** yüksək bədii dəyərə malikdir. Yaradıcılığı başdan-başa bədii təsvir və ifadə vasitələri ilə zəngindir. Nə qədər ki, dünya və məhəbbət var, Füzuli də olacaq... Türk xalqları və türk dili durduqca Füzuli yaşayacaq. (I cild, səh. 25)

Füzuli sərv qamətli, xumar gözlü, qönçə dodaqlı, lalə yanaqlı gözəlləri vəsf edəndə ayrılıq həsrətindən, vüsalın şirinliyindən ilhamla danışır:

Vəslini mən nə ümid ilə təmənna eləyim,
Nə cəsarətlə mən ondan diləyim bəzmi-vüsal.
Göstər ol gül üzünü, canımı qurban eləyim,
Hüsnünün şöhrəti artsın, mən edim kəsbi-kəmal. (III cild, səh. 253)

Şairin əsərlərinin IV cildində ana dilində yazdığı qəsidələr, fars və ərəb dilində yazılmış qəsidələrinin tərcümələri daxil edilmişdir. Bunlarda dövrünün tarixi hadisələri öz parlaq əksini tapmış, müasirlərini ədalətə səsləmiş, ictimai məsələlərdən ətraflı şəkildə bəhs etmiş, hətta ədalətsizlik nəticəsində ölkədə nə kimi fitnə-fəsad törəyəcəyini göstərməkdən də çəkinməmişdir:

Vay ol hakimə kim, eyləyə hökmündə xəta,
Qıla məzlumləri mərhəmətindən məhrum,
Verə zalimlərə öz nəfi üçün istila... (IV cild, səh. 132)

Şairin əsərlərinin V cildində farca yazdığı "**Rindü Zahid", "Səhhət və Mərəz"**, ərəbcə yazdığı **"Mətlə ül-etiqad"** adlı elmi-fəlsəfi əsəri, eləcə də farsca **"Yeddi**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 476-481*

**cam"** poemasının tərcümələri, farsca qəzəl və qəsidələrinin sətri tərcümələri, bunlarla yanaşı Füzuli adına yazılmış şeirlər məcmusu diqqəti cəlb edir.

**"Rindü Zahid"** Yaxın Şərq ədəbiyyatı tarixində mühakimə tərzində yazılmış böyük bir hekayədir. Burada ata ilə oğul arasında gedən mübahisə əsasında dövrün ictimai, siyasi və əxlaqi məsələləri mühakimə edilir. (V cild, səh. 2) **"Səhhət və Mərəz"** əsərində şair öz dövrünün tibbi görüşlərini bir təbib kimi bədii şəkildə məharətlə qələmə almış və elmi əsərin qiymətli əvəz olunmaz nümunəsini yaratmışdır. **"Mətlə ül-etiqad"** da isə sırf elmi-fəlsəfi məsələlər; elm, bilik, din, ilk yaradılış və yunan filosoflarının bu barədə görüşləri, Allahın varlığı, peyğəmbərlik, məhşər, dünyanın sonu ilə əlaqədar baxışlar diqqəti cəlb edir. Bütün bunlar şairin qüdrətli elmi-fəlsəfi biliklərə malik olması, İlahi varlığı yüksək dərəcədə dərk etmək baxışları ilə bağlıdır.

Şairin əsərlərinin VI cildində verilən **"Hədiqətüs-süəda"**sı (**"Xoşbəxtlər bağçası"**) qanın qılınca qalib gəldiyi bu tarixi hadisə ilə bağlı yazılmışdır. Azərbaycan bədii nəsrinin ən klassik örnəyi sayılan əsər müəllifin dini düşüncə, iman və əqidə duyğularının bədii əksi baxımından çox səciyyəvidir. Dərd əlindən ürəyi çatlayan insanı ovunduraraq ona mənəvi qida verən Kərbəla hadisəsini qələmə almağı şərəf işi sayan, buna milli dini borc kimi baxan mütəfəkkir Füzuliyə **"Hədiqətüs-süəda"**nı yaratmaqda yaşadığı mühitin də böyük təsiri olmuşdur. Əsərdə əksini tapan şəhidlik eşqi, məslək və etiqad yolunda mübarizə motivi hər zaman yenidir. İnsanın mənəvi və cismani köləliyə üsyanı, etirazı və bu yolda hətta öz həyatını qurban verməsi ən yüksək və şərəfli insanlıq amili kimi göstərilir. Həmin əqidə və məslək döyüşü ona görə yaşarıdır ki, əsasında mənəvi paklıq, ruhi müqəddəslik, insani gözəllik və əzəmət var. (VI cild, səh. 2)

## İstifadə olunan ədəbiyyat

1.M. Füzuli. Əsərləri. Altı cilddə, I cild, "Şərq-Qərb", Bakı-2005
2.M. Füzuli. Əsərləri. Altı cilddə, II cild, "Şərq-Qərb", Bakı-2005
3.M. Füzuli. Əsərləri. Altı cilddə, III cild, "Şərq-Qərb", Bakı-2005
4.M. Füzuli. Əsərləri. Altı cilddə, IV cild, "Şərq-Qərb", Bakı-2005
5.M. Füzuli. Əsərləri. Altı cilddə, V cild, "Şərq-Qərb", Bakı-2005
6. M. Füzuli. Əsərləri. Altı cilddə, VI cild, "Şərq-Qərb", Bakı-2005

**MAHMUDAĞA QASIMOV**

**MƏHƏMMƏD FÜZULININ ƏSƏRLƏRININ 6 CILDLIYI HAQQINDA …**

**XÜLASƏ**

Məqalədə klassik Azərbaycan ədəbiyyatının görkəmli söz ustadı, hikmət mülkünün çələngi sayılan M.Füzulinin yaradıcılığından söz açılır. Şairin altı cildlik əsərlərinin hər birində vəsf edilən məsələlər diqqət mərkəzinə, göz önünə gətirilir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 476-481*

Ana dilində yazdığı əsərlərdən, xüsusən Azərbaycan, ərəb və fars dillərində yaratdığı **"Divan"**lardan və fəlsəfi mahiyyət daşıyan qəzəllərindən danışılır. Şairin əsərlərində Quran ayələri, peyğəmbərin hədisləri, sufilik oyanışları duyulur. Qəzəllərində saflıq, xeyirxahlıq, həyata məhəbbət, insana, onun mənəvi gözəlliyinə yüksək inam və dərin hörmət bəslənilir.

**"Leyli və Məcnun"** poemasının Füzuli yaradıcılığında yüksək zirvədə durduğu, alleqorik tərzdə yazılan **" Bəngü Badə"** əsərində mülk üstündə gedən qanlı çəkişmələr, **"Söhbət-ül Əsmar"**də özünü tərifləyən şəxslərin iç-üzü meyvələrin mübahisəsində, **"Şikayətnamə"**də isə vəqf idarələrindəki məmurların rüşvətxorluğu, süründürməçiliyi, qanunsuz əməlləri ifşa olunur.

**"Rindü Zahid"** əsərində ata ilə oğul arasında gedən mübahisədə dövrün ictimai-siyasi və əxlaqi məsələləri, **"Səhhət və Mərəz"**də şairin tibbi görüşləri, **"Mətlə ül -etiqad"** əsərində elmi-fəlsəfi məsələlərdən, İlahi varlığın dərk edilməsindən söz açılır .

**" Hədiqətüs-süəda"**da Kərbəla hadisələrini qələmə almış, bunu özü üçün şərəf işi, milli dini borc saymışdır. Bütün bunlar şairin həyata baxışlarını, əqidə və məsləyini, insani gözəllikləri və paklığı əks etdirməsini real şəkildə göstərir.

**MAHMUDAGHA GASIMOV**

**ABOUT THE 6 VOLUMES OF WORKS OF MUHAMMAD FUZULI...**

**SUMMARY**

The article discusses the work of M. Fuzuli, who is considered a prominent master of words of classical Azerbaijani literature, a wreath of wisdom. The issues described in each of the six volumes of the poet's works are brought to the center of attention and attention. The works he wrote in his native language, especially the "Divans" he created in Azerbaijani, Arabic and Persian, and his philosophical ghazals are discussed. The poet's works contain verses from the Quran, hadiths of the Prophet, and Sufi awakenings. Purity, kindness, love for life, high faith and deep respect for man and his spiritual beauty are felt in his ghazals.

In the work "Bengü Bade", written in an allegorical style, where the poem "Leyli and Majnun" stands at the peak of Fuzuli's creativity, bloody disputes over property are exposed, in "Sohbet-ul Asmar" the innermost part of self-praise individuals is exposed in the dispute over fruits, and in "Shikayatname" the bribery, procrastination, and illegal actions of officials in the endowment offices are exposed.

In the work "Rindu Zahid", the dispute between a father and a son is discussed in the socio-political and moral issues of the time, in "Sehhat ve Maraz" the poet's medical views are discussed, in "Matla ul -etiqad" scientific-philosophical issues, and the understanding of the Divine Being are discussed.

In "Hadiqatus-suada", he wrote about the events of Karbala, considering it a matter of honor for him, a national religious duty. All of this realistically reflects the poet's views on life, his beliefs and ideals, and his reflection of human beauty and purity.

**Махмудага Гасымов**

**О 6 ТОМАХ ПРОИЗВЕДЕНИЙ МУХАММАДА ФУЗУЛИ...**

**АННОТАЦИЯ**

В статье рассматривается творчество М. Физули, считающегося выдающимся мастером слова классической азербайджанской литературы, венцом мудрости. В центре внимания – вопросы, затронутые в каждом из шести томов произведений поэта. Рассматриваются его произведения на родном языке, особенно «Диваны», созданные на азербайджанском, арабском и персидском языках, а также философские газели. В произведениях поэта присутствуют стихи из Корана, хадисы Пророка и суфийские прозрения. В его газелях ощущаются чистота, доброта, любовь к жизни, высокая вера и глубокое уважение к человеку и его духовной красоте. В произведении «Бенгу Баде», написанном в аллегорическом стиле, где поэма «Лейли и Меджнун» является вершиной творчества Фузули, раскрываются кровавые споры из-за имущества, в «Сохбет-уль-Асмар» раскрывается сокровенная суть самовосхваления людей в споре за фрукты, а в «Шикаятname» раскрываются взяточничество, медлительность и незаконные действия чиновников в кассах.

В произведении «Ринду Захид» спор отца и сына рассматривается на фоне общественно-политических и моральных проблем того времени, в «Сеххат ве Мараз» – медицинские взгляды поэта, в «Матла уль-этикад» – научно-философские вопросы и постижение Божественного Существа.

В «Хадикатус-суада» он писал о событиях в Кербеле, считая это делом чести для себя, национальным религиозным долгом. Все это реалистично отражает взгляды поэта на жизнь, его убеждения и идеалы, его размышления о человеческой красоте и чистоте.

Redaksiyaya daxil olma tarixi:

**Rəyçi**: filol. ü. fəls. dok. **Y.Dadaşlı** tərəfindən çapa tövsiyə olunmuşdur.